*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 93-97*

https://doi.org/10.62837/2025.6.93

**CƏFƏROVA SEVINC**
**sevingceferova110@gmail.com**
**QULIYEVA ŞƏRQIYYƏ**
**squliyeva1@amu.edu.az**
**MƏMMƏDOVA ŞƏHLA**
**Shehlamemmedova3@gmail.com**
**Azərbaycan Tibb Universiteti**

# DİLLƏRİN TƏDRİSİNDƏ TEXNİKİ VASİTƏLƏRİN TƏTBİQİ

**Açar sözlər:** *texnologiya, dilin tədrisi, fəaliyyət növləri, neologizmlər, motivasiya, inteqrasiya.*

Texniki vasitələrdən istifadə etməklə xarici dil dərslərinin tədris olunması hər zaman aktual olmuş və orta və ali təhsil müəssisələrinin ən bəsit səs yazma vasitələrindən tutmuş son dövrün ən müasir texniki vasitələrinədək geniş istifadə olunmuşdur. Məqalədə xarici dili kimi ingilis dili və rus dillərinin tədrisində yeni texnologiyalardan istifadənin artan rolu, dil bacarıqlarının möhkəmlənməsini təmin edən fərqli münasibətlər müzakirə olunur. Texnoloji inteqrasiyanın mahiyyəti müəyyənləşdirilir. Dil qrupunda istifadəsi, dil öyrənmə vərdişlərinin inkişafında texnologiyaların rolu ilə bağlı məsələlər nəzərdən keçirilir. Hazırda cəmiyyətin sosial-iqtisadi həyatında baş verən proseslər yalnız hər hansı təhsil müəssisəsi məzununun hazırlıq səviyyəsi üçün deyil, həm də müasir müəllimin peşə ixtisası va səriştəlik səviyyəsi üçün yeni tələblər irəli sürülür. İnformasiya ilə təlim vasitələri, informasiya texnologiyalarının inkişaf etdirilməsi və bunların müəllim və tələbələr tərəfindən optimal istifadə metodikası və praktikası xarici dilin tədrisində arzu olunan nəticələr verə bilər. Müasir təhsil informasiya telekommunikasiya texnologiyaları ilə sıx bağlıdır. Təhsil prosesində İKT-dən fəal istifadə məzunların uğurlu gələcəyinin təməlidir.

Dilin beynəlxalq ünsiyyət fəaliyyətinin ən əhəmiyyətli amillərindən biri olması daha çox sayda xarici dilə yiyələnmək zərurətini yaradır. Beynəlxalq münasibətlərin genişlənib, möhkəmlənməsi, informasiyaaxını xarici dillərə olan təlabatı həyati zəzurətə çevirmişdir. Elə buna görə də xarici dillərin, xüsusən də beynəlxalq dil hesab olunan ingilis dilinin statusu daha da artır. Müasir dövrdə təhsil müəssisələrində avtoritar metodikanın yerini əməkdaşlıq, dioloji təlim metodikası tutur. Müasir yanaşmalara görə, dərsdə müəllimin rolu dəyişir, onun bilikləri hazır şəkildə vermək funksiyası özünü doğrultmur. O, fasilitator – bələdçi, yol göstərən, öyrənməyi öyrədən mövqeyində çıxış edir, tələbə isə əməkdaşlıq edir, tədqiqat aparır, fikirlərini əsaslandırır.

Yeni texnologiyalar, kəşflər və ixtiralar dilinin ingilis dili olması və bu dildə 3 milyarda yaxın insanın danışması dil məsələlərinin nə dərəcədə mühüm olmasını bir daha vurğulayır. Qeyd etmək lazımdır ki, neologizmlər bu siyahıya təsadüfən daxil edilmir. Dünyanın söz ehtiyatına görə ən zəngin dil olan ingilis dilinin süət və vüsətini də nəzərə almaqla bu dilin tədrisinin vacibliyi şübhə doğurmur. Ümumdünya Dil monitorinqinin 2020-ci il yanvarın 1-ə olan son hesablamasına görə ingilis dilində sözlərin sayı 1.060000-ə çatmışdır. Siyahıya alınmağa namizəd sözlər dünya miqyasında tanınmalı və onlara mətbuat və digər rəsmi mənbələrdə ən azı 25000 dəfə istinad olunmalıdır. Yalnız bütün bu tələblərə cavab verdikdə neologizmlər ingilis dilinin rəsmi siyahısına alına bilir və tamhüquqlu dil, vahidinə çevrilə bilir. Bu zəngin söz xəzinəsinin böyük bir hissəsi terminlərin payına düşür ki, onların da tədrisi əsasən ali məktəblərdə həyata keçirilir. Terminlərlə zəngin olan oxu, dinləmə, yazı və danışıq materiallarının texniki vasitələrlə təqdimatı qavramanı əhəmiyyətli dərəcədə artırır, yaddaşda daha yaxşı qalmasını, düzgün tələffüz olunmasını təmin edir. Burada yeni sözlərlə yanaşı terminlırin də tələffüzünü xüsusi lə vurğulamaq lazımdır. Belə ki, bəzi terminlər latın mənşəli və alınma sözlər olduğu üçün ingilis dilinin tələffüz qaydalarına tabe olmur. Bu səbəbdən bəzən sözün düzgün tələffüzünü yalnız yazılı şəkildə təqdim etmək kifayət etmir və bu məqamda müəllimin rolu əvəzolumazdır. Müasir proqramlar istər lüğət, istərsə də digər tətbiqi mənbələr vasitəsi ilə asanlıqla müəllimin düzgün istiqaməti olmadan bəzən yaxşı nəticə əldə etmək olmur.

Hal-hazırda texnologiyadan istifadə auditoriyadan kənar təlim prossesinin ayrılmaz hissəsinə çevrilmişdir. Texnologiyanın nailiyyətlərindən xarici dili yeni öyrənməyə başlayanlar və onu inkişaf etdirərək daha yüksək səviyyəyə çatdırmaq istəyənlər yararlanır. Yeni vasitələr dərslərin keyfiyyətini artırmaq, dil öyrənmək prosesini sürətləndirmək, onu daha da asanlaşdırmaq baxımından müəllimlərin qarşısında geniş imkanlar yaratmışdır. Tələbələr ingilis dili bacarıqlarını dinləmə, danışıq, oxu və yazı kimi istifadə edirlər. Müəllimlər dil tədrisinə müvəffəq olmaq üçün tələbələri kompyüter texnologiyalarından istifadə edərək göstərilən fəaliyyət növlərindən yararlanmağatəşviq etməlidirlər. Uyğun texnoloji materialların tövsiyə olunması, dil öyrənmələri düzgün istqamətləndirilməlidir. İnternet öz istifadəçilərinə hüdudsuz mənbələr təqdim edir. Əksər hallarda hər hansı bir məfhunun axtarışı yüz minlərlə və daha artıq cavablarla nəticələnir. Kompyüter əsaslı tədrisin daha bir üstün cəhəti hər bir dil səviyyəsinə uyğun tətbiq olunmuş tədris resuslarının mütəmadi olaraq yenilənməsidir. Bu mənbələrin əldə olunmasına bir neçə saniyə vaxt sərf olunur və sayı milyonlarla ölçülən nəticələr təqdim olunur. Belə zəngin məlumat bazasından lazımi məlumatın tapılması da müəyyən bacarıq və səriştə tələb edir. Bundan əlavə texnologiyadan istifadə edərək dil öyrənənlərə bir çox orijinal material təqdim etməklə, onlarda xarici dilə yiyələnməyə, motivasiyaya, həvəs yaratmış oluruq.

Texnologiya həmişə tədris və təhsil mühitinin əhəmiyyətli bir hissəsi olmaqla yanaşı müəllimlərin də öz fənninin tədrisini daha yüksək səviyyədə qurmağa imkan yaratmışdır. Tədris və təlimdə texnologiyadan bəhs etdiyimiz zaman "inteqrasiya" sözünə tez-tez rast gəlirik (1,141). Xüsusilə pandemiyanın yayılmasından sonra texnologiya gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrildiyi üçün onu tədris planına inteqrasiya etmək texnologiya ilə tədrisin vəhdətini yaratmağın nə dərəcədə böyük əhəmiyyət kəsb etməsini bir daha sübut etdi.

**X Ü L A S Ə**

Texniki vasitələrin tətbiqi yalnız müasir dəbə uyğunlaşmaq məqsədi ilə deyil, ilk növbədə yeni texnologiyaların saysız imkanlarla tədris prosesinin səmərəliliyinin artırılması ilə şərtlənir. İngilis dilini öyrənmək üçün özümündə bəyənib istifadə etdiyim 5 mükəmməl mobil tətbiqi sizə də təqdim edirəm:

**Diolingo:** oyun məntiqi ilə dil öyrənmək üçün əla bir tətbiqdir. **Babbel:** günlük həyat dilində fokuslanan interaktiv bir tətbiqdir. **Rosette stone:** Bu tətbiqi dilə qulaq asmağı və gözlə görərək öyrətmək məqsədlidir. **Memzise:** Sözləri və ifadələri öyrənmək üçün interaktiv bir yanaşma təklif edir. **Cambly:** Bu tətbiq vasitəsilə dünyanın müxtəlif bölgələrindəki insanlarla dil mübadiləsi edə bilərsiniz.

Pandemiyanın yayılması ilə əlaqədar daraq onlina təhsil sisteminə qəfil keçid isə texniki vasitələrdən istifadə məsələsini bütün kəskinliyi ilə ön plana çıxartdı. Burada, müstəqil şəkildə təhsil fəaliyyəti üçün tədqiqat aparmaq, təhsilə yaradıcı yanaşma tənqidi fikir söyləmə kimi müxtəlif bacarıq mövqelərinin formalaşdırılması müəllim qarşısında bir vəzifə kimi daha bariz şəkildə üzə çıxdı. Hal-hazırda universitetlərin hər bir dil qrupunda müasir texnologiyanın müxtəlif növlərindən istifadə olunur. Və onun tətbiqi davamlı olaraq daha geniş vüsət alır.

**Jafarova Sevinc**
**Guliyeva Sharqiya**
**Mammadova Shahla**

**APPLICATION OF TECHNOLOGY`M TEACHING FOREIGN LANGUAGES**

**S U M M A R Y**

Technology continues to increase its significance as a tool to help teachers make language learning easier for students. The use of technology has become an important part of the learning process in and out of the classroom. Types of technology are generally used in every language class. Technology is used both to help language learning and to improve it . It allows teachers to adapt to classroom activities. Expands the language learning process.

English language learners to improve their learning skills using technology. The development of information tools and information technologies, the methods and practices of their optimal use by teachers.

Students can give the desired results in forcing language teaching. Modern education is closely connected with information and telecommunication technologies (1.ct). Active use of ICT in the educational process in the key to a successful future for graduates.

Nowadays one of the main tasks of a teacher is to facilitate the learning process, make it more effective and increase student motivation.

**Джафарова Севиндж**
**Кулиева Шаргия**
**Мамедова Шахла**

## ПРИМЕНЕНИЕ ТЕХНОЛОГИЙ В ПРЕПОДАВАНИИ ИНОСТРАННЫХ ЯЗЫКОВ

### Р Е З Ю М Е

Использование технологий стало важной частью процесса обучения в аудитории и за ее пределами. Типы технологий обычно используются в каждом языковом классе. Технологии используются как для помощи в изучении языка, так и для по улучшения. Технологии позволяют преподавателям адаптироваться к занятиям в аудитории и расширяют процесс изучения языка Технологии продолжают приобретать все большее значение как инструмент, помогающий преподавателям облегчить изучения языка для учащихся статья посвящена роли использования новых технологий в обучении английскому языку как второму иностранному. В статье обсуждаются различные подходы, которые помогают изучающим иностранные языки улучшать свои навыки обучения с помощью технологий.

В статье рассматриваются понятия технология и интеграция технологий объясняется использование технологий в языковых классах, рассматриваются вопроси, связанные с использованием технологий для улучшения языковых навыков. Современные инновационные процессы в социально – экономической жизни общества предъявляют новые требования не только к уровню подготовки выпускника учебного заведения, но и к уровню профессионализма и компетентности современного преподавателя. Развитие информационных технологии, а также методов и способов их оптимального использования преподавателями и студентами может дать желаемые результаты в обучении иностранному языку. Современное образование тесно связано с информационными телекоммуникационными технологиями (ИКТ). Активное

использование ИКТ в образовательном процессе – залог успешного будущего выпускников.

**Ə D Ə B İ Y Y A T**

1. Becker H.J. (200). Findings from the teachingç learming and computingş survery. Education Policy Analisis archives, 8(51);
2. Selauki D. Shyamleel M.P. (2012). Use of technology in English language teaching and learuing: An analysis. 2012 İnternational Conference on Language, Medias and Culture /PEDR vol. 33 (2012 Press, Singapore.
3. Raihan M.A., Zock. H.S. (2010). Technology integration for meaningful learning – the constructivist viu. Bangladesh Educational Journal 11(1) 17-37;
4. Baytak A, Tarman B., Ayas C. (2011). Experiencing technology integration in Education: children`s perceptions. International Electronic Journal. Elementary Education, 3 (2), 139-151.

**Rəyçi: prof. Zemfira Məmmədova**